BUILDING TRUST

# MƏHSULUN MƏLUMAT VƏRƏQİ

# SikaCeram® Sealing Membrane A

Kafel-metlax, plitə örtüklər altı elastik su izolyasiya membranı

## TƏSVIR

SikaCeram® Sealing Membrane A, kafel, metlax, mozaika və digər yapışdırılan plitə örtüklər altında, sanitaq qovşaqların, eyvanların, terasların, hovuzların, isitməli döşəmələrin su izolyasiyası üçün istifadə olunan elastik izolyasiya və ayırıcı(decoupling) təbəqə membranıdır. Ayırıcı qat olaraq alt təbəqə gərginliyinin plitə örtüyə təsirini azaldır.

## İSTİFADƏ YERLƏRİ

Plitə örtüklər altında su izolyasiya və ya ayırıcı qat olaraq :
- Daxili və xarici məkanlarda
- Normal və yüksək yüklənmə şərtlərində
- Komersiya və yaşayış binalarında
- Hamamlar və Sanitar qovşaqlarda
- Mətbəxlər və Çamaşırxanalarda
- İçtimai, özəl Spa mərkəzlərində
- Üzgücülük hovuzlarında (maks.10mt dərinlik)
- Balkon və Teraslarda
- İsitməli döşəmələrdə (Su və elektrikli isitmə)
- Daxildə, mövcud möhkəm yapışmış keramik plitələrin üzərində

## ÜSTÜNLÜKLƏRİ

- Qalınlıq ~0,5 mm
- Su və buxar keçirməzdir
- Elastikdir
- Ayırıcı təbəqə xassəlidir
- Yüksək çat körpüləmə xüsusiyyətli
- Plitə yapışdırıcılarına yüksək adgeziyası
- İsitməli döşəmələrə uyğunluğu

## DAVAMLILIQ

Uçucu üzvi birləşmələr ( VOC) emissiya təsnifatı GEV-Emicode EC 1PLUS

## TƏSDİQLƏR VƏ SERTİFİKATLAR

ETAG022 Hissə 2 - Sanitar qovşaqların divar və döşəməsinin su keçirməzliyi üçün elastik membran dəsti, ETA-20/0677 üzrə CE İşarələnməsi və Fəaliyyət Bəyannaməsi .

## MATERIAL MƏLUMATI

| | | |
|---|---|---|
| **Kimyəvi əsası** | Su keçirməz membran | Polietilen |
| | Üzlük Keçə | Polipropilen |
| **Qablaşdırma** | Karton qutu, 1,0 m eni × 30 m uzunluğu. | |
| **Saxlama Müddəti** | 24 ay | |
| **Saxlama Şərtləri** | Məhsul üfüqi şəkildə, orijinal, açılmamış və zədələnməmiş, bağlı qablaşdırmada, quru şəraitdə, +5°C ilə +35°C arasında temperaturda saxlanmalıdır. Qablaşdırma üzərindəki məlumata istinad edin. | |
| **Görünüş və rəng** | Sarı | |
| **Effektiv qalınlıq** | ~0,5 mm | |

| | |
|---|---|
| **Sahə vahidinə düşən ağırlıq** | 285 g/m² (± 20 g/m²) |

## TEXNİKİ MƏLUMATLAR

| | | | |
|---|---|---|---|
| **Dartılma gücü** | Uzununa | 390 N / 50 mm (≥ 250 N / 50 mm) | (EN ISO 527-3) |
| | Eninə | 140 N / 50 mm (≥ 100 N / 50 mm) | |
| **Qırılma zamanı gərginlik** | Uzununa | 55 % (≥ 35 %) | (EN ISO 527-3) |
| | Eninə | 130 % (≥ 90 %) | |
| **Xidmət temperaturu** | -30 °C min. / +90 °C maks. | | |
| **Su keçirməzlik** | ≥ 1,5 bar | | (EN 1928 Version B) |
| **Su-buxar ötürmə sürəti** | ≥ 50 m | | (ETAG 022) |
| **Kimyəvi dayanıqlıq** | Bir çox kimyəvi maddələrə dayanıqlıdır. Əlavə məlumat üçün Sika Texniki Xidmətləri ilə əlaqə saxlayın. | | |
| **UB dayanıqlığı** | ≥ 450 saat | | (EN ISO 4892-3) |
| **Yanğına reaksiya** | B2 | | (EN 4102) |

## TƏTBİQ MƏLUMATI

| | |
|---|---|
| **Ətraf mühit temperaturu** | +5 °C min. / +35 °C maks. |
| **Səthin temperaturu** | +5 °C min. / +35 °C maks. |

## SİSTEM MƏLUMATI

**Sistem strukturu**

**ETAG 022 Bölüm- 2 standardına uyğun olaraq SikaCeram® Sealing Fix ilə yapışdırma:**

| | |
|---|---|
| Astar | SikaCeram® Sealing Fix Məhsulunun Məlumat Vərəqinə istinad edin. |
| Yapışdırıcı | SikaCeram® Sealing Fix |
| Membran | SikaCeram® Sealing Membrane A |
| İzolyasiya lenti | Sika® SealTape F |
| Plitə Yapışdırıcısı | SikaCeram®- 201<br>SikaCeram®-205 Allplus |

**Uyğunluq**

**Aşağıdakı materiallar ilə birlikdə tətbiqə uyğundur :**

| | |
|---|---|
| Astarlar | SikaWall®-45 deco primer,<br>SikaWall® -12 Binder |
| Membran yapışdırıcısı | SikaCeram® Sealing Fix,<br>Sikalastik®-1k,<br>Sika Topseal®,<br>SikaCeram ® -C2 sinifli |
| Plitə yapışdırıcısı | SikaCeram ® -C2 sinifli |

# MƏHSUL MƏLUMATLARININ ƏSASLARI

Bu məlumat vərəqində göstərilən bütün texniki məlumatlar laboratoriya sınaqlarına əsaslanır. Faktiki ölçülmüş məlumatlar nəzarətimizdən kənar vəziyyətlərə görə dəyişə bilər.

# ƏLAVƏ MƏLUMAT

Sistem materialları ilə əlaqədar, Məhsulun Məlumat Vərəqinə istinad edilməlidir.

# DİQQƏT EDİLMƏLİ MƏHDUDİYYƏTLƏR

- Üzəri açıq buraxılmamalı, örtük yapışdırılmalıdır.
- Membran və aksesuarların tətbiqi yapışdırıcının açıq gözləmə müddəti ərzində edilməlidir.
- İzolyasiya membranının zədələnmədiyindən əmin olun.
- Məhsulun məlumat vərəqində qeyd olunmayan məqsədlər üçün istifadə etməyin.
- Divar-divar və divar -döşəmə birləşmələrində SikaSeal ®Tape F istifadə olunmalıdır.

# ƏTRAF MÜHİT, SAĞLAMLIQ VƏ TƏHLÜKƏSİZLİK

### (EC) NO 1907/2006 - REACH TƏNZİMLƏMƏ

Bu məhsul (EC) 1907/2006 (REACH) saylı reqlamentin 3-cü maddəsində müəyyən edilmiş məhsuldur. Tərkibində normal və ya tövsiyyə olunan istifadə şərtləri altında məhsuldan ayrılması gözlənilən heç bir maddə yoxdur. Məhsulun bazara çıxarılması, daşınması və ya istifadəsi üçün eyni qaydanın 31-ci maddəsinə uyğun təhlükəsizlik məlumat vərəqinə ehtiyac yoxdur. Təhlükəsiz istifadə üçün məhsulun məlumat vərəqəsində verilmiş təlimatlara əməl edin. Mövcud biliklərimizə əsasən, bu məhsulda REACH qaydalarının XIV Əlavəsində yazılmış və ya Avropa Kimya Agentliyi tərəfindən dərc olunan namizədlər siyahısında qeyd olunan 0,1 % (w/w) konsentrasiyasından yüksək SVHC (çox yüksək narahatlıq doğuran maddələr) yoxdur.

# TƏTBİQ TƏLİMATLARI

### AVADANLIQ

- Qayçı, kəsici biçaq.
- Kauçuk şpatel/Mala/Sürtgəc vəya divar kağızı şpateli.

Digər məhsulların tətbiq alətləri üçün müvafiq məhsulun məlumat vərəqinə müraciət edin.

### SƏTHİN KEYFİYYƏTİ

SikaCeram® Sealing Membrane A, su izolyasiya membranı, ETAG standardına uyğun olaraq SikaCeram® Sealing Fix yapışdırıcısı və ya digər tövsiyyə olunan yapışdırıcılar ilə tətbiq edilir.
Səth hazırlığı ilə əlaqədar, yapışdırıcı və izolyasiya Məhsulunun Məlumat Vərəqinə müraciət edin.

### TƏTBİQ METODU/ALƏTLƏR

**ETAG 022 part 2 standardına uyğun olaraq SikaCeram® Sealing Membrane A materialının SikaCeram® Sealing Fix ilə tətbiqi:**

- **Detallar**

Sika® SealTape F su keçirməzlik lentini, hərəkətli birləşmələrə, döşəmə/divar birləşmələrinə, künclərə, drenajlara və boruların ətrafına SikaCeram® Sealing Fix çəkməklə yapışdırın.

- **Membran tətbiqi**

SikaCeram® Sealing Membrane A, izolyasiya membranını lazımlı ölçülərdə kəsin. Yeni çəkilmiş SikaCeram® Sealing Fix təbəqəsi üzərinə sərərək yerləşdirin. Yüngül təzyiq ilə plastik hamarlayıcı malanı membran üzərində gəzdirin, yapışdırıcı ilə membran arasındakı havanı çıxmasına şərait yaradın.
Membran ortasından başlayaraq kənarlara doğru çəkməklə hərəkəti təkrarlayın.

- **Membran birləşmələri**

Bütün üst-üstə düşən birləşmələr SikaCeram® Seal Fix ilə yapışdırılmalı və izolyasiya edilməlidir. Üst-üstə düşmələrin effektiv eni minimum 50 mm olmalıdır.ı SikaCeram® Sealing Fix-i , 80 mm enində mövcud tətbiq olunan SikaCeram® Sealing Membrane A üzərinə tətbiq edin. Digər membran təzə məhlulun üzərinə qoyulur və plastik düz mala ilə birləşmə üzərinə təzyiq edilir. Yapışdırılan birləşmədə də hava qabarcıqlarının və boşluqların qalmaması vacibdir.

- **Plitə tətbiqi**

Kafel-metlax və digər örtük yapışdırılmasına SikaCeram ®Sealing Fix yapışdırıcısı bərkidikdən sonra başlanılmalıdır.

- **Eyvan və Teraslar**

SikaCeram® Sealing Membrane A izolyasiya membranı, meyil boyunca uzununa tətbiq edilməlidir, çarpaz tətbiq edilməməlidir. Bu, birləşmələr üzərində suyun dayanmaması, meyil boyunca asanlıqla axması üçün vacibdir.

- **Ayırıcı təbəqə olaraq tətbiqi:**

Beton, şap və bənzəri səth üzərinə tətbiq edilən SikaCeram® Sealing Membrane A, ayırıcı təbəqə olaraq, səthdə əmələ gələn gərginliklərin üst təbəqəyə əks etmə təsirini azaldır, yapışdırılan plitə örtüklərin ömrünü və keyfiyyətini artırır.
SikaCeram® markalı ( EN 12004 standardı) C2 sinifli yapışdırıcı 4 mm dişli mala vasitəsi ilə səthə çəkilir. SikaCeram® Sealing Membrane A membranı yapışdırıcı qatı üzərinə yerləşdirilir, plastik düz mala membranın örtasından başlayaraq kənarlara doğru yüngül təzyiq edilməklə sıyırılır.

- **Ayırıcı qatın birləşmə yerləri**

Yan-yana və uzununa olan birləşmələr standard yapışdırıcı bantlar ilə yapışdırılır.

- **Plitə tətbiqi**

Membran yapışdırıcısı kimi istifadə olunan SikaCeram® (EN 12004) C2 sinifli yapışdırıcı bərkidikdən sonra plitə yapışdırma tətbiqinə başlamaq olar.

- **Üzgücülük hovuzları:**

Üzgüçülük hovuzlarının izolyasiyası üçün lazım olan tətbiq məlumatlarını Sika Texniki Xidmətlər bölməsindən əldə edin.

## YERLİ MƏHDUDİYYƏTLƏR

Qeyd edək ki, xüsusi yerli qaydalar nəticəsində bu məhsul üçün elan edilmiş məlumatlar və tövsiyə olunan istifadələr ölkədən ölkəyə dəyişə bilər. Dəqiq məhsul məlumatları və istifadələri üçün yerli Məhsul Məlumat Vərəqinə müraciət edin.

## HÜQUQİ QEYDLƏR

Bu məlumat vərəqi, xüsusəndə, Sika məhsullarının tətbiqi və son istifadəçi üçün tövsiyyələri, doğru anbarlama, qarışdırma, və standard ətraf mühit şəraitində Sika təlimatlarına uyğun tətbiq olunmaqla əldə edilmiş bilik və təcrübəyə əsaslananan məsləhətlərdir. Praktikada, materiallardakı, səthlərdəki və faktiki sahə şərtlərindəki fərqliliklər səbəbi ilə, bu məlumat vərəqindən, hər hansı yazılı tövsiyələrdən və ya təklif olunan hər hansı digər məsləhətdən xüsusi bir tətbiq üçün uyğunluğu ilə bağlı nə bir zəmanət, nə də hüquqi münasibətdən irəli gələn hər hansı öhdəlik götürülə bilməz. Məhsulun istifadəçisi məhsulun nəzərdə tutulan xüsusi tətbiq və məqsəd üçün uyğunluğunu test etməlidir. Sika öz məhsullarının xüsusiyyətlərini dəyişdirmək hüququnu özündə saxlayır. Üçüncü şəxslərin mülkiyyət hüquqlarına riayət edilməlidir. Bütün sifarişlər mövcud satış və çatdırılma şərtlərimizə uyğun olaraq qəbul edilir. İstifadəçilər, məhsulun yerli Məhsul Məlumat Vərəqinin ən son nüsxəsinə istinad etməlidirlər. Məhsul Məlumat Vərəqini aze.sika.com internet səhifəsindən və ya sorğu əsasında info@az.sika.com poçt adresindən təmin edə bilərlər.

**Sika Azərbaycan MMC**
Sumqayıt Kimya Sənaye Parkı
Kimyaçılar küç.1, AZ5002
Sumqayıt E119
Telefon: +99412 585 10 11
Faks: +99412 585 10 12